Vahabova İranə Xəlil qızı,
Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının
II kurs magistr dinləyicisi, polis leytenantı
Email: zaiivagab@gmail.com

UOT 343.13
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0194

ŞƏHƏRSALMA SİYASƏTİNDƏ VİDEOMÜŞAHİDƏ SİSTEMLƏRİ: HÜQUQİ TƏNZİMLƏMƏ VƏ İBTİDAİ İSTİNTAQDA QARŞIDURMANIN ARADAN QALDIRILMASI METODU

Açar sözlər: *videomüşahidə, üztanıma, süni intellekt, "ağıllı şəhər", şifahi portret.*

Ключевые слова: *видеонаблюдение, распознавание лиц, искусственный интеллект, "умный город", словесный портрет.*

Keywords: *video surveillance, facial recognition, artificial intelligence, "smart city", verbal portrait.*

Bu gün urbanizasiya proseslərinin sürətlənməsi şəhər mühitində təhlükəsizlik məsələlərini daha da aktual etmişdir. Davamlı və inklüziv şəhərsalma siyasətinin əsas komponentlərindən biri ictimai təhlükəsizliyin təmin olunmasıdır. Bu kontekstdə videomüşahidə sistemləri (VMS) şəhər infrastrukturlarının ayrılmaz elementi kimi çıxış edərək həm preventiv, həm də reaktiv təhlükəsizlik aləti kimi geniş tətbiq olunur.

VMS müasir şəhərlərdə "ağıllı şəhər" konsepsiyasının əsas komponentlərindən biri hesab olunur. Müasir dövrdə VMS və üztanıma qurğuları ictimai təhlükəsizliyin təmini, habelə ona nəzarətin gücləndirilməsinin vacib olduğu yerlərdə quraşdırılır. Bu sistemlər ictimai yerlərdə baş verən hadisələrin real vaxt rejimində izlənməsinə və qeydə alınmasına imkan verir. Şəhər mühitində videomüşahidənin əsas funksiyaları aşağıdakılardır: ictimai asayişin qorunması, cinayətlərin qarşısının alınması, hüquqmühafizə orqanlarının operativ fəaliyyətinin dəstəklənməsi, fövqəladə hallara operativ reaksiya. Müasir elektron qurğularla təchiz olunmuş VMS insanları, obyektləri, davranışları məsafədən müşahidə edərək onlar haqqında məlumatları avtomatik toplayır, onları təhlil edir, ya da təhlil olunması üçün xüsusi analitik sistemlərə ötürür. Bu sistemlərin əsas iş prinsipi hüquqpozmaların profilaktikası, aşkarlanması, onlara operativ reaksiyanın verilməsi fəaliyyətindən ibarətdir.

Bu məqalənin məqsədi videomüşahidənin şəhərsalma siyasətində yerini, onun hüquqi tənzimlənməsini və ibtidai istintaqda qarşıdurma metodu kimi istifadəsinin xüsusiyyətlərini təhlil etməkdir.

Tədqiqatlar göstərir ki, videomüşahidə sistemlərinin tətbiqi cinayətlərin azalmasına müəyyən təsir göstərir. Xüsusilə nəqliyyat qovşaqlarında, ictimai nəqliyyat vasitələrində və insanla-

rın sıx olduğu ərazilərdə bu sistemlərin preventiv rolu daha qabarıq şəkildə müşahidə olunur.

VMS müasir hüquq-mühafizə fəaliyyətində ibtidai istintaq mərhələsində sübutların mötəbərliyinin təmin olunmasında mühüm rol oynayır. Bu texnologiyalar hadisələrin obyektiv və fasiləsiz qeydə alınmasını təmin etməklə sübut bazasının etibarlılığını artırır və subyektiv amillərin əsirini minimuma endirir. Eyni zamanda, videomaterial-lar vasitəsilə təqdim olunan məlumatların təhlili yalan və ya təhrif olunmuş ifadələrin operativ şəkildə təkzib edilməsinə imkan yaradır. Bu isə istintaq prosesində şəffaflığın və hüquqi ədalətin təmin edilməsinə əhəmiyyətli töhfə verir. Nəticə etibarilə, videomüşahidə sistemlərinin tətbiqi sübutların qiymətləndirilməsi prosesində elmi-texniki əsaslı yanaşmanın gücləndirilməsinə xidmət edir.

Aparılan tədqiqatlara əsasən qeyd edə bilərik ki, şəxsiyyətin eyniləşdirilməsində zahiri əlamətlər – üz cizgiləri, göz, burun, ağız, qulaq, dəri, çapıq izləri və digər fərdi xüsusiyyətlər mühüm rol oynayır. Biometrik metodların tətbiqi lə cinayət hadisələrinin araşdırılması zamanı əxsiyyətin sürətli və dəqiq müəyyənləşdirilməsi mümkün olur. Əlavə olaraq, şifahi portret metodunun inkişafı zahiri əlamətlərin sistemləşdirilmiş şəkildə təsvirinə yeni yanaşmalar gətirib, həm Azərbaycan, həm də beynəlxalq təcrübədə geniş tətbiq olunmağa başlanmışdır.

Bir çox ölkələrdə, xüsusilə Avropa, Şimali Amerika və Asiya regionlarında rəqəmsal görüntülərin emalı süni intellekt texnologiyalarının tətbiqi, eləcə də informasiya-kommunikasiya sistemləri vasitəsilə analiz edilməsi kimi müasir yanaşmalar geniş istifadə olunur. Bu üsullar sayəsində fərdin vizual biometrik göstəriciləri yüksək dəqiqliklə araşdırılır və mövcud məlumat bazaları əsasında müqayisəli təhlillər aparılır. Belə yanaşmalar kriminalistikbaxımdan qiymətləndirildikdə, həm cinayət hadisələrinin effektiv araşdırılmasına, həm də süni intellekt dəstəyi ilə ehtimal olunan cinayətkarın profilinin formalaşdırılması və identifikasiya olunmasına mühüm töhfə verir.

Azərbaycanın hüquq-mühafizə qurumları cinayətlərin istintaqı zamanı "şifahi portret" üsulundan, eləcə də şəxsin xarici görünüş xüsusiyyətlərinin sistemli şəkildə təsvirindən istifadə edərək praktikada müsbət nəticələrə nail olmuşlar. Məsələn, bəzi cinayət hadisələrində şahid ifadələri ilə yanaşı, videomüşahidə sistemlərindən əldə edilən rəqəmsal görüntülərin təhlili nəticəsində formalaşan biometrik məlumatların operativ emalı cinayət törətməkdə şübhəli bilinən şəxslərin müəyyən olunması və saxlanılması prosesinin daha da sürətlənməsinə şərait yaratmışdır. Şahidlərin hadisə barədə məlumat verməməsi və ya qəsdən yalan məlumat təqdim etməsi ibtidai istintaqın obyektivliyinə ciddi maneələr yaradır. Bu kontekstdə videomüşahidə sistemləri hadisələrin real vaxtda və dəyişdirilməz formada qeydə alınmasını təmin etməklə alternativ və etibarlı sübut mənbəyi kimi çıxış edir. Videogörüntülərin hüquqi baxımdan təhlili şahid ifadələrinin doğruluğunun yoxlanılmasına və ziddiyyətli məqamların aşkar edilməsinə imkan verir. Bununla yanaşı, bu texnoloji vasitələr yalan ifadələrin ifşa olunmasına və sübutların saxtalaşdırılması riskinin minimuma endirilməsinə xidmət edir. Nəticə etibarilə, videomüşahidə sistemlərinin tətbiqi istintaq prosesində sübutların mötəbərliyinin təmin edilməsində və ədalətli qərarların qəbulunda mühüm hüquqi əhəmiyyət kəsb edir.

Lakin beynəlxalq təcrübə ilə müqayisədə, texnologiyanın inkişafı, məlumat bazalarının tamlığı və məlumatların etibarlılığı sahəsində bəzi problemlər mövcuddur. Bunun həlli üçün, daxili investisiyaların artırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasında şəxsiyyətin müəyyən edilməsi sahəsində hüquqi tənzimləmə-

lər müasir dövrün tələblərinə uyğunlaşdırılması məqsədilə daim təkmilləşdirilir. Milli qanunvericilikdə şəxsi məlumatların mühafizəsi və biometrik göstəricilərdən istifadə məsələləri xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə nəzərə alınmaqla, bu istiqamətdə vahid standartların tətbiqi və effektiv nəzarət mexanizmlərinin formalaşdırılması üçün əlavə tədbirlərin görülməsi zəruridir. Avropa və Şimali Amerika ölkələrində kriminalistika sahəsində rəqəmsal texnologiyaların geniş tətbiqi, süni intellekt əsasında alqoritmlərin inkişaf etdirilməsi və beynəlxalq məlumat bazalarının yaradılması istiqamətində nailiyyətlər əldə edilmişdir. Həmin ölkələrdə zahiri əlamətlər üzrə identifikasiya üsulları yüksək dəqiqliklə avtomatlaşdırılmış sistemlər vasitəsilə həyata keçirilir və real vaxt rejimində toplanan məlumatlar operativ şəkildə təhlil olunur.

Araşdırmanın nəticələri göstərir ki, rəqəmsal texnologiyalar vasitəsilə aparılan identifikasiya cinayət hadisələrinin araşdırılmasında və qarşısının alınmasında yüksək effektivliyi təmin edir. Həm Azərbaycan, həm də beynəlxalq səviyyədə tətbiq olunan metodların üstünlükləri və qarşılaşdıqları çətinliklər müqayisəli təhlil edildikdə, ölkəmizdə texnoloji modernləşdirmə, hüquqi tənzimləmələrin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın artırılması sahəsində mühüm addımların atılmasının vacib olduğu aşkar olur.

Gələcəkdə süni intellekt texnologiyalarının və VMS-dən əldə olunan rəqəmsal görüntülərin emalının daha geniş şəkildə tətbiqi ilə biometrik sistemlərin inteqrasiyası və məlumat bazalarının təkmilləşdirilməsi nəticəsində şəxsiyyətin müəyyən edilməsi prosesi daha da dəqiqləşəcəkdir. Bu isə cinayətlərin qarşısının alınması və açılması istiqamətində hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artmasına gətirib çıxaracaqdır. Azərbaycan ilə digər dövlətlər arasında təcrübə mübadiləsinin genişləndirilməsi, həmçinin beynəlxalq standartların tətbiqi bu sahədə əldə olunan nəticələrin qlobal miqyasda daha optimal səviyyəyə çatdırılmasına imkan yaradacaqdır. Aparılmış elmi araşdırmalar və empirik tədqiqatlar göstərir ki, biometrik üsulların rəqəmsal texnologiyalarla birgə tətbiqi identifikasiya prosesində ənənəvi metodların çatışmazlıqlarını aradan qaldırır və müasir kriminalistik tələblərə uyğun daha effektiv yanaşma formalaşdırır.

Sifətin identifikasiyası sahəsində tətbiq olunan üsullar arasında xüsusi yer tutan metodlardan biri "şifahi portret" metodudur. Bu metod vasitəsilə insan üzündə mövcud olan 50-dən artıq fərqli əlamət – gözlər, qaşlar, burun, ağız, dəri tonu və digər xüsusiyyətlər ətraflı şəkildə təsvir olunur. Hər bir parametr üzrə müxtəlif variantlar müqayisə edilir və nəticədə fərdin özünəməxsus "biometrik imzası" formalaşdırılır. Beynəlxalq praktikada bu metod süni intellekt əsaslı alqoritmlərlə dəstəklənərək avtomatlaşdırılmış sistemlər vasitəsilə həyata keçirilir.

Bununla yanaşı, bədən quruluşu, boy, çəki, dəri rəngi və digər fizioloji göstəricilər də şəxsiyyətin müəyyənləşdirilməsində mühüm rol oynayır. Bu xüsusiyyətlər həm klassik kriminalistik üsullarda, həm də müasir rəqəmsal texnologiyalarda geniş istifadə olunur. Azərbaycan və beynəlxalq səviyyədə aparılan tədqiqatlar göstərir ki, bu göstəricilərin dəqiq ölçülməsi və kompleks təhlili şəxsiyyətin identifikasiyası sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunmasına imkan yaradır.

İnkişaf etmiş ölkələrdə kriminalistik identifikasiya sistemləri rəqəmsal görüntülərin emalı və süni intellekt alqoritmlərinin tətbiqi ilə daha da təkmilləşdirilir. Bu sistemlər çoxsaylı foto və video materiallar üzərində avtomatlaşdırılmış analiz apararaq fərdin dəqiq müəyyən edilməsini təmin edir. Azərbaycanda da bəzi bölgələrdə bu cür texnologiyaların tətbiqinə başlanılıb, lakin infrastrukturun inkişafı və məlumatların keyfiyyətinin artırılması baxımından beynəlxalq təcrübə ilə müqayisədə hələ də müəyyən təkmilləşdirmələrə ehtiyac duyulur.

Zahiri əlamətlərə əsasın şəxsiyyətin eyniləşdirilməsi metodlarının tətbiqi zamanı hüquqi və etik problemlər də yaranır. Şəxsi məlumatların qorunması, fərdi hüquqların müdafiəsi və məlumatların subyektiv qiymətləndirilməsi məsələləri beynəlxalq hüquqi sənədlər və etik kodekslərlə tənzimlənir. Azərbaycan Respublikasında da bu sahədə qanunvericilik və standartlar inkişaf etdirilməkdədir, lakin qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, daha sistemli yanaşma və müstəqil nəzarət mexanizmləri tətbiq olunmalıdır.

Zahiri əlamətlərə əsasən şəxsiyyətin eyniləşdirilməsi metodlarının tətbiqi zamanı şəxsi toxunulmazlıq hüququ ilə cinayət mühakimə icraatının effektivliyi arasında normativ qarşıdurma yaranır. Bu qarşıdurma, xüsusilə videomüşahidə vasitəsilə əldə edilmiş görüntülərin sübut kimi istifadəsi zamanı müdafiə tərəfinin etirazları ilə daha da aktuallaşır. Hüquqi baxımdan, belə sübutların qəbul edilə bilməsi üçün onların əldə olunması prosesi qanunilik, zərurət və proporsionallıq prinsiplərinə uyğun olmalıdır; əks halda, əldə edilmiş məlumatlar "qadağan olunmuş sübutlar" kateqoriyasına daxil edilə bilər. Müdafiə tərəfi əsaslı şəkildə iddia edə bilər ki, şəxsi həyata müdaxilə qanuni əsas olmadan və ya məhkəmə nəzarəti olmadan həyata keçirildikdə, bu, sübutların mötəbərliliyinə və qəbul edilə bilməsinə xələl gətirir. Nəticə etibarilə, məhkəmə orqanları belə hallarda həm şəxsi toxunulmazlıq hüququnun qorunmasını, həm də cinayət təqibinin maraqlarını tarazlaşdırmalı, yalnız hüquqi tələblərə uyğun əldə edilmiş və etibarlı hesab olunan videomaterialları sübut kimi qəbul etməlidir.

Azərbaycan Respublikasında biometrik məlumatların tətbiqi və istifadəsi qaydaları "Biometrik informasiya haqqında" Qanuna əsasən həyata keçirilir. Qanunun 6-cı maddəsində biometrik texnologiyaların tətbiqi sahələri qeyd edilmişdir. Belə ki, biometrik texnologiyaların üz təsvirlərinin, gözün qüzehli və tor qişasının elektron formada çəkilib toplanılması və qeydiyyatı, fotorobotla təsvirin yaradılması, identifikasiyası və verifikasiyası; şəxsin videomüşahidə vasitəsilə kütlə içərisində tanınması; əl-barmaq və ovuc izlərinin elektron formatda çəkilib toplanılması və qeydiyyatı, identifikasiyası və verifikasiyası; səs fraqmentinin elektron formatda yazılıb toplanılması və qeydiyyatı, identifikasiyası və verifikasiyası; səs fraqmentinin və onun akustik parametrlərinin analizi; informasiyanın səs formatından elektron mətn formatına konvertasiyası, mətnin səsləndirilməsi; kağız üzərində yazı xəttinin və imzanın elektron formatda surətinin çıxarılıb toplanılması və qeydiyyatı, identifikasiyası və verifikasiyası; yazı xəttinin analizi və DNT analizi, analizin nəticələrinin elektron formatda toplanılması və qeydiyyatı, şəxsin identifikasiyası tədbirləri həyata keçirilərkən tətbiq olunur [1].

Cinayətlərin açılması və istintaqı zamanı zahiri əlamətlərdən istifadə üsulları arasında ən geniş yayılmış metodlardan biri "şifahi portret" yanaşmasıdır. Eyni zamanda, bu metod xarici görünüş xüsusiyyətlərinin təsviri əsasında şəxsiyyətin müəyyənləşdirilməsində ənənəvi və səmərəli kriminalistik vasitələrdən biri hesab edilir. Sözügedən üsul əsasən şahidlərlə aparılan istintaq hərəkətləri zamanı tətbiq edilir. Şahidlərin təqdim etdiyi məlumatlara əsaslanaraq şübhəli şəxsin zahiri görünüşü təsvir olunur və bunun əsasında fotorobot hazırlanır. Müasir mərhələdə fotorobotların tərtibi üçün müxtəlif kompüter proqramlarından (məsələn, "FACES" və ya "Phantomas") istifadə olunur. Bu proqramlar standart üz elementlərini kombinasiya edərək şahidlərə daha dəqiq və real təsvirlərin formalaşdırılmasına imkan verir.

Habelə şəxsiyyətin eyniləşdiriməsində biometrik sistemlərin imkanlarından da geniş şəkildə istifadə olunur. Biometrik sistemlər zahiri əlamətlərin avtomatlaşdırılmış təhlili əsasında şəxsiyyətin müəyyən edilməsini təmin edir. Bu

sistemlərə aşağıdakılar daxildir: Üz tanıma texnologiyası – kameralar vasitəsilə üz xüsusiyyətlərinin təhlili;

Bununla yanaşı, müasir texnoloji inkişaflar zahiri əlamətlərin analizində ciddi yeniliklərə gətirib çıxarmışdır. Neyron şəbəkələr əsasında fəaliyyət göstərən intellektual sistemlər vasitəsilə şəxsiyyətin müəyyən edilməsi prosesi daha operativ və yüksək dəqiqliklə həyata keçirilir. Hazırda intellektual sistemlər çərçivəsində "üz tanıma texnologiyaları" (şəhər təhlükəsizlik kameraları vasitəsilə şübhəli şəxslərin aşkarlanması) və "yeriş analizi" (fərdin hərəkət xüsusiyyətlərinə əsaslanaraq identifikasiyası) kimi üsullardan həm yerli, həm də beynəlxalq səviyyədə geniş istifadə edilir.

"Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 06 iyul 2010-cu il tarixli 131 nömrəli Qərarına əsasən əhalinin təhlükəsizliyinin, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması, hüquq qaydasına riayət edilməsi vəziyyətinin fasiləsiz və canlı izlənilməsi, qanunazidd hərəkətlərə, fövqəladə hallara çevik reaksiya verilməsi məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin videonəzarət sistemlərinin həmin qərarda qeyd edilmiş yerlərdə və obyektlərdə quraşdırılması nəzərdə tutulmuşdur [2].

Üz tanıma texnologiyası ilə şəxsiyyətin eyniləşdirilməsi – üzün tanınması identifikasiya üsulu – fərdləri müəyyən etmək üçün şəkillər və ya videoçəkilişlərdən üz xüsusiyyətlərini təhlil etmək və müqayisə etmək üçün alqoritmlərin istifadəsini nəzərdə tutur. Üz tanıma texnologiyası insanın üzünün şəklini çəkmək və onu rəqəmsal formata çevirməklə işləyir.

İrisin (gözün torlu qişasının) skan edilməsi ilə şəxsiyyətin eyniləşdirilməsi – irisin (gözün torlu qişasının) skan edilməsi qabaqcıl identifikasiya üsuludur. Bu biometrik texnologiya şəxsiyyəti təsdiqləmək üçün insanın gözünün rəngli hissəsindəki unikal naxışları təhlil edir. İrisin skan edilməsi texnologiyası hər bir fərd üçün (əkizlərdə belə) unikal olan irisin ətraflı təsvirini çəkərək şəxsiyyətin eyniləşdirilməsini həyata keçirir.

Azərbaycan Respublikasında biometrik texnologiyaların tətbiqi son illərdə sürətlə inkişaf edib. Biometrik pasportlar və şəxsiyyət vəsiqələri üzrə yeni nəsil şəxsiyyət vəsiqələri və biometrik pasportlarda üz, barmaq izi və digər biometrik məlumatlar çip üzərində saxlanılır. Bu, vətəndaşların beynəlxalq səfərlərində və dövlət xidmətlərindən istifadə edərkən şəxsiyyətlərinin avtomatik eyniləşdirilməsini təmin edir [4].

Zahiri əlamətlərə əsaslanan şəxsiyyətin kriminalistik eyniləşdirilməsinin nəzəri əsasları, metodoloji yanaşmaları və tətbiqi təcrübələri Azərbaycan Respublikası və dünyanın qabaqcıl ölkələrinin təcrübəsi əsasında müqayisəli şəkildə təhlil edərkən araşdırmanın nəticələri göstərir ki, biometrik metodlar və rəqəmsal texnologiyalar vasitəsilə aparılan identifikasiya cinayət hadisələrinin araşdırılmasında və qarşısının alınmasında yüksək effektivlik təmin edir. Videomüşahidə sistemləri real vaxt rejimində hadisələrin fasiləsiz və obyektiv qeydə alınmasını təmin etməklə sübut bazasının möhkəmləndirilməsində mühüm rol oynayır. Bu cür texnoloji vasitələr ilə əldə olunan videogörüntülər digər sübutların doğruluğunu yoxlamağa və onları təsdiq etməyə imkan verir. Bununla yanaşı, müxtəlif sübut mənbələri arasında yaranan ziddiyyətlərin aradan qaldırılmasına hüquqi və faktiki əsas yaradır. Beləliklə, videomüşahidə sistemlərinin tətbiqi ibtidai istintaq mərhələsində sübutlar icrasındakı ziddiyyətlərin minimuma endirilməsinə və obyektiv həqiqətin müəyyən edilməsinə xidmət edir.

Həm Azərbaycan, həm də beynəlxalq səviyyədə tətbiq olunan metodların üstünlükləri və qarşılaşdıqları çətinliklər müqayisəli təhlil

edildikdə, ölkəmizdə texnoloji modernləşdirmə, hüquqi tənzimləmələrin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın artırılması sahəsində mühüm addımların atılması vacib olduğu aşkar olur.

Gələcəkdə süni intellekt və rəqəmsal görüntü (videomüşahidə kameralarının) emalının daha geniş tətbiqi, biometrik sistemlərin inteqrasiyası və məlumat bazalarının inkişafı sayəsində şəxsiyyətin eyniləşdirilməsi prosesinin dəqiqliyi daha da artacaq, cinayətlərin qarşısının alınması və açılması prosesində hüquq-mühafizə orqanlarının effektivliyi yüksələcəkdir. Azərbaycan və digər ölkələr arasında təcrübə mübadiləsi, eləcə də beynəlxalq standartların tətbiqi, bu sahədə əldə olunan nəticələrin qlobal səviyyədə optimallaşdırılmasına şərait yaradacaqdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. “Biometrik informasiya haqqında” Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/15144

2. “Əhalinin sıx toplaşdığı yerlərdə və obyektlərdə videonəzarət sistemlərinin yaradılması barədə” Nazirlər Kabinetinin Qərarı. [Elektron resurs] /URL: https://e-qanun.az/framework/35079

3. Daxili İşlər Nazirliyinin hesabat xəbərləri. [Elektron resurs]/URL: https://modern.az/olke/509780/bakida-4200-uz-tanima-kamerasi-qurashdirilib/

4. Azərbaycan Dövlət İnformasiya Agentliyi xəbərləri // Yeni nəsil şəxsiyyət vəsiqələri. [Elektron resurs] /URL: https://azertag.az/xeber/yeni_nesil_sexsiyyet_vesiqelerinin_tetbiqi_elektron_xidmetlerden_istifadeni_genislendirecek-825391

5. Videotəsvirlərin analizi əsasında sosial münasibətlərin aşkarlanması üçün yanaşma // [Elektron resurs] /URL: https://www.researchgate.net/publication/353551161_VIDEOTSVIRLRIN_ANALIZI_SASINDA_SOSIAL_MUNASIBTLRIN_ASKARLANMASI_UCUN_YANASMA

6. Video nəzarət nədir? Video nəzarət kompüteri hansı konfiqurasiya tələb edir? // https://www.sinsmarts.com/az/blog/what-kind-of-configuration-does-a-video-surveillance-computer-require/?srsltid=AfmBOopxzj3-ek_p-t9W4ssg-DpHFv2Q6S0Q4LbCV5b2BIxbjXGRAVAPs

7. https://pa.edu.az/upload/KONFRANS%202025.pdf

Вагабова Ирана Халил гызы,
магистрант II курса Полицейской академии
Министерства внутренних дел Азербайджанской Республики,
лейтенант полиции.

СИСТЕМЫ ВИДЕОНАБЛЮДЕНИЯ В ГОРОДСКОЙ ПОЛИТИКЕ: ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ И МЕТОД УСТРАНЕНИЯ КОНФЛИКТОВ НА СТАДИИ ПРЕДВАРИТЕЛЬНОГО РАССЛЕДОВАНИЯ

РЕЗЮМЕ

В данной статье комплексно проанализирована роль систем видеонаблюдения, биометрических технологий и подходов на основе искусственного интеллекта в обеспечении общественной безопасности в условиях урбанизации. В исследовании обосновываются функции систем видеонаблюдения как превентивного и реактивного инструмента безопасности в рамках концепции «умного города», а также их вклад в обеспечение достоверности доказательств на стадии предварительного расследования. Одновременно сравнительно исследованы методы идентификации на основе физических признаков, включая метод «словесного портрета» и технологии распознавания лиц, с точки зрения их возможностей применения и правовых ограничений. В статье проанализированы правовые конфликты, возникающие между правом на неприкосновенность личности и интересами уголовного

преследования, подчеркнута необходимость совершенствования законодательства в этой сфере. В заключение сделан вывод, что интеграция цифровых технологий и биометрических систем открывает широкие перспективы для повышения эффективности следственного процесса и установления объективной истины.

Vahabova Irana Khalil,
Second-Year Master's Student, Police Academy,
Ministry of Internal Affairs, Republic of Azerbaijan,
Police Lieutenant

VIDEO SURVEILLANCE SYSTEMS IN URBAN PLANNING POLICY: LEGAL REGULATION AND A METHOD FOR RESOLVING CONFLICTS IN PRELIMINARY INVESTIGATION

SUMMARY

The article provides a comprehensive analysis of the role of video surveillance systems, biometric technologies, and artificial intelligence–based approaches in ensuring public safety in the context of urbanization. The study substantiates the functions of video surveillance systems as both preventive and reactive security tools within the "smart city" concept, as well as their contribution to ensuring the reliability of evidence during the preliminary investigation stage. At the same time, identification methods based on physical characteristics, including verbal portrait techniques and facial recognition technologies, are comparatively examined in terms of their application potential and legal limitations. The article also analyzes the legal conflicts arising between the right to personal inviolability and the interests of criminal prosecution, emphasizing the necessity of improving the relevant legal framework. In conclusion, it is determined that the integration of digital technologies and biometric systems offers broad prospects for increasing the efficiency of the investigative process and establishing objective truth.

Redaksiyaya daxilolma tarixi: 07.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 12.06.2026
Çapa qəbul olunma tarixi: 13.06.2026